# Azərbaycan Yazıçılar Birliyi Mətbuat xidmətindən

Təəssüf ki, hələ də bəzi sosial şəbəkələrdə Yazıçılar Birliyinin hər bir hərəkəti biləərəkdən tərs yozulur, onlar barədə yalan məlumatlar verilir. Belə faktlardan biri də Güney Azərbaycan Ədəbiyyatı komissiyasının işi ilə bağlı AYB katibliyinin verdiyi qərardır.

Dekabr ayının 23-də AYB Katibliyi bu komissiyanın işini və AYB sədrinin müşaviri Sayman Aruzun fəaliyyətini müzakirə etmişdir. Sayman Aruzun da iştirak etdiyi toplantıda onun fəaliyyətində müəyyən nöqsanlar qeyd edilmişdir. Sayman Aruz həm adı keçən komissiyanın sədri, həm də AYB sədrinin müşaviri kimi iki vəzifə tutduğundan Güney Azərbaycan ilə bağlı bütün məsələləri öz inhisarında saxlamağa çalışdığı qeyd edilmişdir. Bu cəhətdən Sayman Aruzu Cənubi Azərbaycan ədəbiyyatının bilicisi kimi sədrin müşaviri vəzifəsində saxlamaq qərarı alınmış, eyni zamanda komissiya sədrliyinə o taylı-bu taylı Azərbaycanda yüksək nüfuz sahibi olan xalq şairi Sabir Rüstəmxanlının namizədliyi irəli sürülmüşdür. Eyni zamanda komissiyanın tərkibi də genişləndirilmişdir. Toplantıda iştirak edən Sayman Aruz da Sabir Rüstəmxanlının namizədliyini dəstəkləmişdir.

Bu məsələ ilə bağlı nizamnaməni pozduqları üçün (qocaman yazıçı Balaş Azəroğluna çirkin böhtan atdığı üçün) Yazıçılar Birliyindən xaric edilmiş birisi və AYB-yə qarşı şər-böhtan kompaniyası apardığına görə məhkəmə tərəfindən cəzalandırılmış başqa birisi vaxtilə Birliyin üzvlüyündən xaric edilmişdilər. İndi həmin adamlar guya ki, Sayman Aruza havadar olub, Yazıçılar Birliyindən hayıflarını çıxmağa cəhd edirlər.

Bir yanlış da ondan ibarətdir ki, guya Katibliyin qərarına Cənubi Azərbaycandan 200 nəfər şəxsin imzası ilə gələn məktub təsir etmişdir. Nə Sayman Aruzun əleyhinə yazılmış bu məktub, nə də İrandan onu müdafiə edən məktubların Yazıçılar Birliyinə göndərilməsi Katibliyin qərarına heç bir təsir göstərməmiş və göstərə də bilməzdi. Sayman Aruzun işindəki nöqsanları komissiyanın üzvləri də göstəriblər. Sayman Aruza Sabir Rüstəmxanlı kimi görkəmli ziyalımızın rəhbərlik etdiyi və tərkibi genişləndirilmiş komissiya ilə sıx əməkdaşlıq şəraitində Cənubi Azərbaycan ədəbiyyatının ölkəmizdə daha geniş və daha obyektiv tanınması üçün konkret tədbirlər görülməsi yolunda çalışmağı təklif edirik.

Onu da qeyd edək ki, nə komissiyanın sədri, nə də müşavirlər Qurultay tərəfindən təyin olunmur. Yalnız AYB katibliyinin qərarı ilə təsdiq olunurlar.

Yeri gəlmişkən, AYB sədrinin başqa bir müşaviri Rauf Aslanovun guya Sədrin hökumət telefonu ilə haralarasa zəng etməsi də heç bir konkret faktla təsdiq edilməyən böhtandır.

Xalqımızın ən gözəl cəhətlərindən biri yaşlı adama, ağsaqqala hörmətlə, ədəblə yanaşmaqdır. Ədəbiyyatda da hər kəsin yeri yaradıcılıq xidmətlərinə görə müəyyənləşir. Sabir Rüstəmxanlı kimi ədəbiyyatımızda danılmaz xidmətləri olmuş bir şəxs yaşına görə onun gördüyü faydalı işlərin yarısını da görməmiş, nisbətən cavan adama qarşı qoymaq mənəviyyatsızlıqdır.

**AYB Mətbuat Xidməti**
**30.12.2025**